“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 16 avqust 2014-cü il | № 63 (1880) | Qiyməti 25 qəpik


# Hərbi Hava Qüvvələri hava hücumundan müdafiə qoşunlarının təlimləri davam edir









***Avqustun 14-də Hərbi Hava Qüvvələri hava hücumundan müdafiə qoşunlarının "Buk-MB" zenit-raket komplekslərindən istifadə olunmaqla təlimləri davam edib.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bilavasitə rəhbərliyi ilə keçirilən təlimlərin əsas məqsədi şəxsi heyət tərəfindən döyüş tapşırığının düzgün yerinə yetirilməsinin müəyyən edilməsi, hərəkətdə olan qoşun qruplaşmalarının, mühüm hərbi və mülki obyektlərin hava zərbələrindən mühafizəsinin təşkil olunmasıdır.

Təlimlər zamanı ehtimal olunan düşmənin intensiv radioelektron və atəş təsiri şəraitində pilotsuz və pilotlu hava hücumu vasitələrini, digər hava hədəflərini, o cümlədən, ballistik və qanadlı raketləri aşkarlamaq, tanımaq, avtomatik izləməyə götürmək və atəşlə məhv etmək kimi praktiki məşqlər həyata keçirilib.

Müdafiə naziri tərəfindən qoyulan tapşırıqlar hava hücumundan müdafiə qoşunları tərəfindən uğurla yerinə yetirilib və döyüş atışlarının nəticəsi yüksək qiymətləndirilib.

Təlimlər davam edir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Serbiyanın RTS telekanalı:
## Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində növbəti addım

**Serbiyanın RTS telekanalının saytında "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində növbəti addım" sərlövhəli məqalə yerləşdirilib.**

Məqalədə Soçidə Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşləri barədə məlumat verilir. Qeyd olunur ki, Azərbaycan və Ermənistan prezidentləri Dağlıq Qarabağ münaqişəsinin tezliklə kompromis və sülh yolu ilə həllinə ümid edirlər. Görüş çərçivəsində müzakirə olunan məsələlərin, səslənən fikirlərin yer aldığı yazıda son günlərdə Dağlıq Qarabağ regionunda, Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində gərginliyin artması ilə bağlı məqamlar təhlil olunur.

Yazıda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verilərək deyilir: "Münaqişənin başlanması 1988-ci ilə təsadüf edir. Dağlıq Qarabağ bölgəsinin işğalı və Azərbaycandan qoparılması tərəflər arasında qanlı müharibəyə çevrildi. Münaqişə xeyli sayda insan tələfatı və bir milyon azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi ilə nəticələndi. 1994-cü ildə tərəflər arasında atəşkəs əldə olundu və münaqişənin nizamlanması üçün ATƏT-in Minsk qrupu yaradıldı".

## Serj Sarkisyan növbəti dəfə qarşılıqlı razılaşmanı pozaraq müzakirə olunan məsələlərin bəzi detallarını özünə sərf edən formada açıqlayır

***Azərbaycan Respublikası Prezidenti Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun AzərTAc-a müsahibəsi***

***- Əli müəllim, prezidentlərin Soçi görüşündən sonra Ermənistan prezidenti Serj Sarkisyan görüşdə müzakirə olunan məsələlərlə bağlı bəzi açıqlamalar verib. Bu açıqlamalarda səslənən fikirlərə münasibətinizi öyrənmək istərdik.***

- Təəssüf edirik ki, S.Sarkisyan bununla artıq neçənci dəfədir qarşılıqlı razılaşmanı pozaraq prezidentlər arasında keçirilən qapalı görüşdə müzakirə olunan məsələlərin bəzi detallarını açıqlayır. Ən acınacaqlı hal isə odur ki, o, tərəflərin həmin görüşdə qaldırdığı məsələləri, ortaya qoyduğu mövqeni təhrif edir, öz subyektiv mülahizələrinə və Ermənistanın maraqlarına uyğunlaşdıraraq saxtalaşdırır. Əlbəttə, ölkə rəhbəri və prezident olaraq belə şeylər ona qətiyyən başucalığı və şöhrət gətirmir. Bu faktlar açıqlanmalı olsaydı, görüşdən sonra prezidentlər mətbuat konfransı keçirər və bütün məsələləri üz-üzə şərh edərdilər. Görüş bitəndən sonra öz ölkəsinə qayıdaraq, müzakirə edilən məsələləri yenidən subyektiv mülahizə və maraqlarını əlavə etməklə, təhrif olunmuş formada yerli ictimaiyyətə çatdırmağı və "yalançı qəhrəman"a çevrilməyi isə yalnız Sarkisyan kimilər edə bilər.

***- Artıq Sarkisyan bunu edib. Odur ki, görüşdə müzakirə olunan bəzi məsələlərə aydınlıq gətirmək və müəyyən detalları dəqiqləşdirməyə ehtiyac duyulur. Bu haqda Azərbaycan ictimaiyyətinə nəyi söyləmək mümkündür?***

- Bir daha təəssüf edirik ki, Sarkisyanın bu hərəkəti bizi də bu qapalı görüşdə müzakirə olunan bəzi məsələlər haqqında açıqlama verməyə məcbur edir. Bəli, Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə keçirilən görüşdə Azərbaycan Prezidenti İlham Əliyev işğal olunmuş ərazilərdə erməni dəstələri tərəfindən ələ keçirilmiş kəlbəcərli iki girovun məsələsini qaldırıb. Məlum olduğu kimi, girovlardan biri Rusiya vətəndaşıdır və onun ailəsinin Rusiya Prezidentinə müraciəti yayılıb. Azərbaycan Prezidenti görüşdə həmin müraciəti Prezident Vladimir Putinə çatdırıb və görüş əsnasında girovların azad edilməsi məsələsini qaldırıb. Prezident İlham Əliyevin fikrincə, ermənilər bu iki kəlbəcərlini heç bir əsas olmadan "təhlükəli diversant"lar kimi qələmə verib və onların ətrafında KİV-də eybəcər şou yaradıblar. Halbuki onların ailə üzvlərinin verdiyi məlumata görə, bu iki şəxs neçə illərdir ki, öz vətəndaşlıq hüquqlarından istifadə edərək ermənilərin işğalı altında olan doğma kəndlərinə - valideynlərinin qəbrini ziyarət etməyə gedirlərmiş. Onlardan birinin Rusiya vətəndaşı olduğunu nəzərə alaraq, Prezident İlham Əliyevin Prezident Vladimir Putindən bu məsələyə münasibət bildirməsini istəməsi isə tam təbiidir və söz yox ki, bu, dinc sakinlərin qeyd-şərtsiz azad olunması məqsədi daşıyır.

Bundan başqa, Azərbaycan Prezidenti üçtərəfli görüşdə işğal bölgəsində və qoşunların təmas xəttində erməni silahlı qüvvələri tərəfindən öldürülmüş əsgərlərin və dinc sakinlərin meyitlərinin müharibə qanunlarına uyğun olaraq, qeyd-şərtsiz geri qaytarılmasını tələb edib. Hətta görüşdə Prezident İlham Əliyev üzünü Sarkisyana tutaraq belə bir ifadə də işlədib: "İşğalçı erməni əsgərlərinin cəbhə bölgəsində ələ keçirdiyi girovlar və meyitlərin üzərində törətdikləri vəhşi əməlləri heç Hitlerin zamanında faşistlər də etməmişdir. Meyitə belə hörmətsizlik etmək olmaz, bu, insana yaraşan əməl deyil". Prezident, həmçinin meyitlərin dərhal öz ailələrinə təhvil verilməsini tələb edib.

**(Ardı 3-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikasının Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsini qəbul edib



Avqustun 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiki qəbul edib.

Görüşdə qoşunların təmas xəttindəki mövcud vəziyyət, keçirilən monitorinqlərin nəticələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***13 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Yusifcanlı, Cəvahirli, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***14 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri bu gecə Ağdam rayonunun Cəvahirli və Tərtər rayonunun Çaylı kəndləri yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***15 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri bu gecə Ağdam rayonunun Yusifcanlı və Şuraabad kəndləri yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.



# Müdafiə Nazirliyinə ünvanlanan müraciətlərin xülasəsi

***Azərbaycanın müxtəlif bölgələrindən və ölkəmizdə yaşayan azərbaycanlılardan, bir sıra xarici ölkələrdən, o cümlədən Türkiyə Respublikası vətəndaşlarından Müdafiə Nazirliyinə gələn məktub və elektron müraciətlərin sayı gündən-günə artır. Onlar Azərbaycan əsgəri ilə həmrəy olduqlarını bildirir və torpaqlarımızın azadlığı uğrunda mübarizə əzmini ifadə edirlər.***

Son vaxtlar kəşfiyyat-diversiya təxribatlarının qarşısının alınmasında Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdikləri hünər və şücaət ölkə ictimaiyyəti tərəfindən dərin rəğbətlə qarşılanır. Cəmiyyətimizin müxtəlif təbəqələrinin nümayəndələri şəhidlərimizin dəfn mərasimlərində yaxından iştirak edir, Vətənimizin ərazi bütövlüyü uğrunda həlak olan hərbçilərimizin xatirələrinə öz ehtiramlarını bildirirlər. Bir həqiqəti qeyd etmək vacibdir ki, ordumuzun ön xətdəki uğurları yüzlərlə, minlərlə vətəndaşımızda böyük ruh yüksəkliyinə səbəb olub. Müdafiə Nazirliyinin ünvanına gələn saysız-hesabsız məktublarda, müraciətlərdə vətənpərvərlik hissləri, ordumuzun şəxsi heyətinə rəğbət və dəstək ifadə olunur.

**Yevlax rayon sakini Ruslan Fehruz oğlu Məmmədovun** məktubundan sətirlər: "Hörmətli nazir! Son vaxtlar ölkəmizin düşmənlə təmas xəttində baş verən hadisələr, erməni hərbi birləşmələri tərəfindən mövqelərimizə edilən aramsız hücumlar bir azərbaycanlı kimi məni də hiddətləndirib. Azərbaycan Ordusunun əsgər və zabitlərinin qəhrəmanlığı sayəsində belə cəhdlərin qarşısının qətiyyətlə alınması məni ürəkdən sevindirir. Son vaxtlar Sizin rəhbərliyiniz ilə ordu quruculuğunda qazanılan uğurlar, orduda şəxsi heyətin döyüş ruhunun yüksəlməsi bizi də ruhlandırır. İnanın ki, yevlaxlı gənclər də Vətənimizin müdafiəsinə və torpaqlarımızın işğaldan azad edilməsinə daim hazırdırlar."

**Ehtiyatda olan hərbi qulluqçu Abbas Məstəliyevin** də müraciətində vətənpərvərlik duyğuları ifadə olunub. O, yazır ki, bu gün ehtiyatda olsam da, müharibə başlayacağı anda məni də könüllü döyüşçülər sırasına qəbul etməyinizi xahiş edirəm.

Başqa bir məktubun müəllifi isə paytaxt sakinlərindən biri - **Emin Hafiz oğlu Tarverdiyevdir**. O da müraciətində qeyd edir ki, cənab nazir, minlərlə ölkə vətəndaşı kimi, mən də torpaqlarımızın azadlığı uğrunda mübarizəyə hazıram. "Silaha sarılıb döyüşlərə başlamaq üçün Sizin əmrinizi gözləyirəm".

Neçə illərdən bəri Ermənistanın hərbi birləşmələrinin təxribat hücumlarına mərdlik sinə gərmiş **Tovuz rayonunun sakinlərindən biri Ramiz Aqil oğlu Abbasovun** da müraciəti Müdafiə naziri general-polkovnik Zakir Həsənova ünvanlanıb.

"Salam, cənab nazir. Biz hər zaman döyüşə hazırıq və möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini gözləyirik. Biz inanırıq ki, öz dədə-baba torpaqlarımızı tez bir zamanda düşməndən azad edib zəfər bayrağımızı öz torpaqlarımızda dalğalandıracağıq. Sizə müraciət etməkdə məqsədim odur ki, istənilən vaxt Sizin rəhbərliyinizlə döyüşlərə qalxmağa hazırıq. Tezliklə ermənilərə göstərməliyik ki, xalqımız nəyə qadirdir. Azərbaycan igidlərinə qısa bir vaxt kifayət edər ki, doğma torpaqlarımızı son qarışına kimi işğaldan azad edək."

**Şəki rayon sakini Mustafayev Dağlar Möylam oğlu** da öz məktubunda bildirir ki, son vaxtlar düşmənlə təmas xəttində baş verənlər bir Azərbaycan gənci olaraq onu narahat edir. O, bildirir ki, sol gözündəki fiziki qüsurla əlaqədar hərbi xidmətdən möhlət hüququna mailk olsa da, Vətən torpaqlarının müdafiəsinə qalxmağa daim hazırdır.

Növbəti müraciətin müəllifi isə **Füzuli rayonunda dövlət işində çalışan Xudiyev Hikmət Asif oğludur**. Gəlin onun qeydlərinə nəzər yetirək: "Horadiz şəhərində yaşayıram, ixtisasca tarixçiyəm. Mən arzu edərdim ki, erməni faşistlərinə qarşı aparacağınız haqq-ədalət müharibəsində bizim gücümüzdən də istifadə edəsiniz. Mən yüzlərlə füzulili gənclə birlikdə düşmənə qarşı döyüşməyə hazıram. Mən özüm də Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olmuşam, bir çox silahlardan istifadə etməyi bacarıram. Cənab nazir, xahiş edirəm ki, könüllü döyüşçülərin toplanmasına icazə verəsiniz. Qoy düşməni torpaqlarımızdan birdəfəlik qovub çıxaraq, axı o torpaqlar bizimdir."

Yenə də başqa bir məktubda oxuyuruq: "Salam. Mən, **Anqbazov Sahib Yusif oğlu**, **Balakən rayon sakini,** ali təhsilli, həqiqi hərbi xidməti yerinə yetirmiş bir vətəndaşam. Son günlər cəbhə bölgəsində baş verən olaylardan çox narahatam. Bunu yazmaqda məqsədim, könüllü olaraq cəbhə bölgəsinə döyüşə getmək üçün qeydiyyata adımı daxil etməyinizi xahiş etməkdir. Vətən, sənə canım fəda..."

15 ildən artıq Azərbaycanda ailə həyatı qurub yaşayan **Türkiyə vətəndaşı Erhan Erdok** da nazirliyə ünvanladığı müraciətdə Azərbaycan torpaqlarının müdafiəsi üçün savaşa hər an hazır olduğunu bildirir.

Yenə də qardaş **Türkiyədən Yıldırım Necdət Əhməd** soyadlı vətəndaş ürək yanğısı ilə Azərbaycandakı son olaylara münasibətini bildirir və könüllü olaraq döyüşçülərimizlə çiyin-çiyinə savaşa atılmağa hazır olduğunu arzulayır.

Böyük türk qardaşlarımızdan biri - **Arslan Volkan Tevfik** də Müdafiə nazirinə yazdığı müraciətində bildirir ki, 12 ildir Azərbaycanda yaşayır və həyatının xeyli hissəsi burada keçib. "Məhz burada ailə həyatı qurmuşam, övladlarımı böyütmüşəm. Müharibəyə səfərbərlik olarsa, məni də nəzərə almağınızı xahiş edirəm. Bu Vətən üçün, Azərbaycan üçün canımı fəda etməyə hazıram."

**Türk yazıçısı Ümran Həsrət Nuri** və ehtiyatda olan türk hərbçi qardaşımız da nazirliyin ünvanına göndərdikləri müraciətlərində ən səmimi duyğularını ifadə edərək Vətənimizin dar günündə bizə yaxından dəstək olacaqlarını bildiriblər.

**Hazırladı:
mayor
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

# Torpağı Vətənə çevirən oğullar

## Döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş və ölümlərindən sonra təltif edilmiş hərbi qulluqçuların medalları Təlim və Tədris Mərkəzində onların ailə üzvlərinə təqdim olunub



***Vətəni müdafiə etməyi özlərinə peşə seçmiş, onun uğrunda hər cür fədakarlığa hazır olan insanlar xalqın ən layiqli övladlarıdır. Şair təsadüfən deməyib ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir! Fikrət Məmmədov, İlqar Verdiyev, Elnur Cəfərov və Ceyhun Orucəliyev də məhz Azərbaycanın belə oğullarındandır. Onlar da böyüyəndə zabit sənətini seçmiş, ömürlərini birdəfəlik Vətənin keşiyində dayanmağa həsr etmişdilər. Təəssüflər olsun ki, bu cəsur hərbçilər uzun ömür sürmədilər, ancaq qısa olsa da, şərəfli, şimşək kimi parlaq bir həyat yaşadılar. Fikrət də, İlqar da, Elnur da, Ceyhun da Vətən üçün canlarını fəda etdilər. Və Azərbaycan naminə şəhid olduqlarına görə xalqımızın xatirəsində əbədilik qazandılar. Ölkə rəhbərliyi bu cəsur Vətən oğullarının fədakarlığını lazımınca dəyərləndirdi və onların hər biri dövlət mükafatı ilə ölümündən sonra təltif edildi.***

Avqustun 14-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilən tədbir şəhid zabitlərimizin mükafatlarının ailə üzvlərinə təqdim edilməsinə həsr olunmuşdu. Şəhid hərbi qulluqçuların ailə üzvləri, valideynləri və yaxınları mərasimə dəvət edilmişdilər. Tədbirə həmçinin Müdafiə Nazirliyinin bir qrup zabiti qatılmışdı.

Mərasim "Şəhidlər elegiyası"nın səslənməsilə başlandı və həzin melodiya Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Heydər Əliyev lektoriyasına toplaşanların duyğularını kövrək bir ovqata köklədi.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini, əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani tədbiri açdı.

Qəhrəmanlığın qəhrəmanla ölmədiyini, qəhrəmanlığın daha uzunömürlü olduğunu dilə gətirən Müdafiə Nazirliyinin nümayəndəsi bu zabitlərimizin Vətən uğrunda şəhidliklə əbədiyyət qazandıqlarını bildirdi. Sonra polkovnik A.Qurbani qısa və şərəfli ömür sürmüş, Azərbaycan Respublikası Prezidentinin sərəncamı və Müdafiə nazirinin əmrilə ölümlərindən sonra "İgidliyə görə", "Hərbi xidmətlərə görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunmuş Vətən oğulları Fikrət Məmmədovun, İlqar Verdiyevin, Elnur Cəfərovun və Ceyhun Orucəliyevin keçdiyi döyüş yolundan söhbət açdı. Qeyd etdi ki, bu hərbi qulluqçuların hər biri əqidəli vətəndaş, bacarıqlı, cəsur və silahdaşlarına nümunə göstərilən zabitlər olublar.

Bakı şəhərində dünyaya gəlmiş Fikrət Məmmədov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Taqım, bölük komandiri vəzifələrində və digər vəzifələrdə xidmət edib. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Qüsursuz xidmətə görə" üçüncü dərəcəli medal, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Hərbi xidmətlərə görə" medalı və ölümündən sonra ""İgidliyə görə" medalı ilə təltif olunub. Vaxtilə Müdafiə Nazirliyinin mətbuat xidmətində çalışmış İlqar Verdiyev mətbuat işçiləri ilə daim ünsiyyətdə olub, ordu ilə bağlı onları vaxtaşırı məlumatlandırıb. İlqar Verdiyev ulu öndər Heydər Əliyevin yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu idi. O, Türkiyədə ali hərbi təhsil almış, mühəndis-istehkam ixtisası üzrə quru qoşunları məktəbini bitirmiş və ingilis dilinə mükəmməl yiyələnmiş hazırlıqlı zabitlərimizdən idi. Xidmətinin son dövrünü cəbhə bölgəsində keçirən İlqar Verdiyev orada şəhidlik zirvəsinə ucaldı.

Onun övladları təqdimetmə mərasimində iştirak edirdilər. Oğlu Kamran atasının layiq görüldüyü medalı almaq üçün anası, bacısı və digər doğmaları ilə Təlim və Tədris Mərkəzinə gəlmişdi. Xoşdur ki, salona toplaşmış insanlar şəhid zabitin övladlarını alqışlarla qarşıladılar.

Elnur Cəfərov Naxçıvandakı Heydər Əliyev adını daşıyan Hərbi Liseyin və Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsidir. O da öncə taqım komandiri təyin edilib, sonra bölük komandiri vəzifəsinə irəli çəkilib. Elnur Cəfərov da döyüş tapşırığını yerinə yetirərkən Vətən naminə həyatda ən şirin nemət olan canını qurban verib.

Ceyhun Orucəliyev də Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyin məzunu olub. Ulu öndərimizin iştirakı ilə məktəbin açılış mərasimində gələcəyin zabitləri adından Ceyhun çıxış etmiş və demişdi ki, özünü hərbi peşəyə ona görə həsr edir ki, valideynlərinin arzuladığı kimi zabit olsun, Vətənə tuşlanan güllələrə sinəsini övlad kimi sipər etsin. Belə də oldu. Həmin tədbiri yaxşı xatırladığını söyləyən polkovnik Qurbani şəhid zabitin həmin mərasimdə çəkilmiş bir şəklini məclis iştirakçılarına göstərdi.

Şəhidlərimizin və Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda dünyadan köçmüş bütün Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Müdafiə nazirinin şəxsi heyət üzrə müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev çıxış etdi.

Tədbir iştirakçılarına üzünü tutan yüksək rütbəli zabit kədərli, eyni zamanda çox şərəfli və yaddaqalan bir gündə görüşdüklərini söylədi. General-leytenant Kərim Vəliyev şəhid olmuş hərbi qulluqçularımızın döyüş vəzifələrini icra edərkən həlak olduqlarını və ölümlərindən sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən yüksək mükafatlarla təltif edildiklərini bir daha vurğuladı. Şəhidlərin ailə üzvlərinə, valideynlərinə və yaxınlarına Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və nazirliyin rəhbərliyi adından baş sağlığı verən nazir müavini dedi:" Sizin hər biriniz əmin olmalısınız ki, şəhid olmuş hərbi qulluqçularımızın heç birinin qanı yerdə qalmayıb və bundan sonra da bunun əvəzi düşməndən birə on qat alınacaq".







General-leytenant Kərim Vəliyev döyüş medallarını minnətdarlıq hissilə şəhid ailələrinə, onların valideynlərinə təqdim etdi.

İlqar Verdiyevin təltif olunduğu "Hərbi xidmətlərə görə" medalını nazir müavini şəhid zabitin 11 yaşlı oğlu Kamranın yaxasına sancdı. Bu zaman atasının adına layiq övlad kimi böyüyən Kamran Verdiyevin dediyi sözlər hamının qəlbində qürur hissi doğurdu: "Təki Vətən sağ olsun!"

Ceyhun Orucəliyevin atası Pirəli Orucəliyev, İlqar Verdiyevin atası Tapdıq Verdiyev mərasimdə çıxış edərək övladlarına görə qürur hissi keçirdiklərini bildirdilər, Prezident İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərdikləri diqqət və qayğıya görə minnətdarlıq etdilər.

Polkovnik Aydın Əyyubovun emosional çıxışı da salona toplaşanlar tərəfindən maraqla qarşılandı. Zabit bildirdi ki, peşəkar hərbçi olan silahdaşları Fikrət Məmmədovun Vətən qarşısında xidmətlərinə görə dövlət mükafatına təqdim olunması onlarda qürur hissi və ruh yüksəkliyi yaradıb: " Müqəddəs torpağımız uğrunda canını qurban vermiş Fikrəti hər zaman şərəf və ləyaqət hissilə xatırlayacağıq. Onun və başqa şəhidlərimizin bu müqəddəs zirvəyə ucalması bizdə döyüş ruhunu və qisasçılıq hissini daha da yüksəldir. Onların qanı yerdə qalmayacaq! Hər birimizin ən böyük arzusu qələbədir, işğal olunmuş torpaqlarımızın - Şuşanın, Xankəndinin azad olunmasıdır. Bu yolda həyatımızı belə qurban verməyə hazırıq.Təki şəhidlərimizin qanları ilə suvardıqları torpaqlarımız azad edilsin! Qoy şəhidlərimizin ruhu şad olsun!"

Mərasimdən sonra Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev şəhid ailələrini çay süfrəsinə dəvət edərək onlarla səmimi söhbət etdi.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

*Unutsaq, unudularıq*

# Bacarıqlı təşkilatçı və nəcib insan idi...

***Bəzən insan yaşadığı ömür yoluna boylananda qəlbində hikmətli bir sual baş qaldırır: "Bu həyatda nə qoyub gedirəm?" Əslində elə insanlar əsl xoşbəxtdirlər ki, sağlıqlarında ikən bu suala cavab tapmaqda çətinlik çəkmirlər. Mən deyərdim ki, bir neçə ay öncə, - bu ilin 10 may tarixində haqqın dərgahına qovuşan unudulmaz həmkarımız, Azərbaycanın hərbi tibb xidmətinin yaradıcılarından biri, mərhum tibb xidməti generalı Dağlar Abdullayevə sağlığında bu sualı verən olsaydı, adəti üzrə gülümsünüb, "Deyəsən xoşbəxtəm", - bildirərdi. Əlbəttə, onun tam haqqı vardı belə deməyə. Çünki Dağlar müəllim ömrünü və taleyini müstəqil Azərbaycanımızın ordu quruculuğuna, konkret olaraq Silahlı Qüvvələrimizdə hərbi tibb xidmətinin təşkilinə həsr etmişdi. Onun tabeliyində saysız-hesabsız hərbi həkim kadrları yetişib ki, əksəriyyəti bu gün də ordumuzun tibb heyətində çalışır.***

Dağlar Abdullayev 1938-ci il avqustun 15-də Ağdaş rayonunda anadan olub.

1956-cı ildə 1 saylı Ağdaş şəhər orta məktəbini bitirdikdən sonra Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub, həmin institutu 1960-cı ildə bitirib. 1961-ci ildə kadr kimi Silahlı Qüvvələrə çağırılaraq, Cənub Qrupu Qoşunları komandanının sərəncamına göndərilib. 1965-ci illədək Cənub Qoşun Qrupu qvardiya tank diviziyasında xidmət edən Dağlar Abdullayev müxtəlif illərdə alayın tibb məntəqəsinin rəisi və tibb xidməti rəisi vəzifələrində xidmət edib.

1978-1983-cü illərdə Cənub Qoşun Qrupu əlahiddə tibb-sanitar taborunun komandiri və hərbi hospitalın rəisi olub. 1983-cü ildə SSRİ Müdafiə nazirinin əmri ilə xidmətini davam etdirmək üçün yenidən Zaqafqaziya Hərbi Dairəsi komandanının sərəncamına göndərilib və Zaqafqaziya Hərbi Dairəsi hospitalının rəisi təyin edilib.



1985-ci ildə sovet ordusundan tərxis olunaraq Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Hərbi kafedrasının tədris hissə üzrə rəisi təyin edilib.

1992-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılıb və Müdafiə Nazirliyi Arxa Cəbhə İdarəsi hərbi-tibb şöbəsinin rəisi, 1993-cü ildən idarə rəisi, Silahlı Qüvvələrin Tibb xidməti rəisi vəzifələrində xidmət edib. 2009-cu ildən Müdafiə nazirinin məsləhətçisi və müşavir vəzifələrində xidmətini davam etdirib.

2014-cü il mart ayının 7-də Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdən istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 8 oktyabr 1994-cü ildə ona "tibb xidməti general-mayoru" ali hərbi rütbəsi verilib. Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilərək 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar həkimi" adına layiq görülüb və bir sıra medallarla təltif olunub.

Dağlar Məmməd oğlu Abdullayev 2014-cü il may ayının 10-da vəfat edib.

Bu gün qürurla deyə bilərəm ki, belə bir nəcib adamla illər boyu çiyin-çiyinə çalışmışam. Hər addımda onun bir təcrübəli həmkar və sədaqətli rəhbər kimi diqqətini, qayğısını hiss etmişəm. Yaxşı yadımdadır, müstəqilliyimizin ilk dövrlərində mən Naxçıvanda hərbi hospitalın rəisi olanda Dağlar müəllimlə ilk görüşümüz baş tutdu. Aradan 20 ildən artıq bir vaxt keçsə də, həmin görüşümüzün xatirəsindən ayrıla bilmirəm. İndi onun cismən yoxluğu hiss edilsə də, mənəvi ucalığı ilə yenə də gözlərim önündədir. Həmin vaxtlar çox çətin bir dövr idi, Azərbaycanda müharibə gedirdi və eyni bir vaxtda biz ordumuzu yaratmalıydıq. Çox təəssüf ki, həm ölkə rəhbərliyində, həm də Müdafiə Nazirliyi sistemində naşı, təsadüfi adamlara mühüm vəzifələrin tapşırılması acınacaqlı vəziyyət yaratmışdı. Amma Dağlar müəllim tabeliyində olanlara təmkinlə, səbrlə izah edirdi ki, biz iki cəbhədə vəzifələrimizin öhdəsindən bacarıqla gəlməliyik: həm döyüş meydanlarında yaralılarımıza məlhəm olmalı, həm də orduda hərbi tibb xidmətini qurub yaratmalıyıq. Məhz Səhiyyə Nazirliyinin o zamankı rəhbərliyi Dağlar Abdullayev kimi bacarıqlı və qətiyyətli tibb zabitinin orduda hərbi tibb xidmətinin yaradılmasına töhfə verəcəyini Müdafiə Nazirliyinin o zamankı rəhbərliyinə inandıra bilmişdi. Çünki keçmiş sovet ordusundan ehtiyata buraxılmış tibb zabiti Səhiyyə Nazirliyində çalışdığı qısa vaxtda özünü yetərincə tanıda bilmişdi. Bilavasitə Dağlar müəllimin yaxından dəstəyi və diqqəti sayəsində biz blokada mühitində döyüşən Naxçıvanda üzərimizə düşən hərbi tapşırıqların öhdəsindən gəlirdik. Yəni, ölkədə nə qədər mürəkkəb siyasi-hərbi şərait olmasına baxmayaraq onun timsalında özümüzü arxalı, qüvvətli sanırdıq.

Təcrübəli tibb generalının həm bir insan kimi özəl xüsusiyyətləri, həm də əsl komandirə, rəhbərə xas olan tələbkarlığı və qətiyyəti onu bizim nəzərimizdə ucalığa qaldırmışdı. Dağlar müəllimdə böyük səmimiyyət, mehribanlıq vardı. Az vaxtda onunla ünsiyyət tapırdın. O, kimliyindən asılı olmayaraq hər kəsi diqqətlə dinləyərdi və hansısa problemin həlli üçün konkret köməyini əsirgəməzdi. Hərdən el arasında deyildiyi kimi, böyüklə böyük, kiçiklə kiçik idi. Onun xoş rəftarını hiss etdikcə, elə bil adam özü də ona doğmalaşırdı, elə zənn edərdin ki, neçə illərdi onu yaxından tanıyırsan.

O, bütün yaradıcı potensialından istifadə edərək Azərbaycanın hərbi təbabətinin yaradılması və inkişaf etdirilməsi üçün bacarıq və imkanlarını əsirgəməzdi. Sovet təfəkkürlü bəzi hərbi həkimlər, başqa millətlərin nümayəndələri ölkəmizdə hərbi təbabətin yaranmasına şübhə ilə yanaşırdılar. Amma məhz Dağlar müəllim kimi vətənpərvər, öz millətinə və dövlətinə ürəkdən bağlı olan hərbi həkimlərimizin yorulmaz xidmətləri sayəsində doğrudan da Azərbaycan Ordusunun hərbi tibb kontingenti formalaşdı və onlar hərbi səhiyyəmizə dəyərli töhfələr verdilər.

Bir dəfə qardaş Türkiyənin ali rütbəli hərbi tibb nümayəndələri ölkəmizə səfərə gəlmişdilər. Onların arasında Gülhanə Hərbi Tibb Akademiyasının rəhbərliyi də vardı. İndiki Baş Klinik Hospitalda onlarla yaddaqalan görüş keçirilmişdi. Həmin görüşdə bir türk həmkarımız Azərbaycanda müasir tibb xidmətinin yaranması üçün illərlə vaxt lazım gələcəyini bildirmişdi. Amma Dağlar müəllim əsl ağayana təmkinini pozmadan ona demişdi: "Heç narahat olmayın, həmin vaxta lap az qalıb". Doğrudan da ölkə rəhbərliyi, şəxsən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ordu quruculuğunun inkişaf etdirilməsinə göstərilən böyük diqqət və qayğı nəticəsində hərbi səhiyyəmiz də yüksələn xətlə inkişaf etdi. Bu gün, Dağlar müəllimin arzuladığı kimi, həqiqətən də Azərbaycanda müasir hərbi səhiyyə sistemi yaranıb.

Vətənpərvər tibb zabitinin önəm verdiyi əsas məsələlərdən biri gənc tibb kadrlarının hazırlanması idi. O bir qədər yaşlı və işinin çox olmasına baxmayaraq vaxtaşırı hərbi feldşerlərin buraxılış mərasimlərində, həmçinin gənc kursantların andiçmə tədbirlərində həvəslə iştirak edərdi. Gələcəkdə müqəddəs bir vəzifəni yerinə yetirməyi öhdəsinə götürən gənc tibb kadrlarına ordunun şəxsi heyətinin sağlamlığının qorunması üçün dəyərli tövsiyələrini çatdırardı.

Dağlar müəllim daim gənc tibb zabitlərini diqqətlə dinləyərdi, kimi hansı məsələ narahat edərdisə, ona qayğıkeşliklə yanaşardı. Qətiyyətli, sözübütöv idi, hər dediyi sözün məsuliyyətini daşıyardı. Yuxarıda bir epizodda qeyd etdiyim kimi, nə qədər təmkinli idisə, bir o qədər də tələbkar və qətiyyətli idi.

Azərbaycan dövlətinin rəhbərliyi yüksək ideallara malik görkəmli hərb xadiminin əməyini yüksək qiymətləndirib. Ulu öndərimiz Heydər Əliyev tərəfindən Silahlı Qüvvələrimizin tibb xidmətinin yaradıcısı kimi tibb xidməti generalı rütbəsi ilə təltif edilən Dağlar Abdullayevə daha sonra yüksək fəxri ad- "Azərbaycan Respublikasının əməkdar həkimi" adı verilmişdi. Dağlar müəllim ordu sıralarından istefaya göndərilsə də, hörmətli Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənov tərəfindən ona yüksək etimad göstərilərək Baş Tibb İdarəsinə məsləhətçi kimi dövlət qulluğuna təyin edilmişdi. Cənab nazir bizə tövsiyə edirdi ki, belə bacarıqlı insanların potensialından, geniş təcrübəsindən yararlanmaq lazımdır. Göründüyü kimi, Vətən uğrunda xidmətləri olan adamların zəhməti heç zaman diqqətdən yayınmır. Mənə elə gəlir ki, Dağlar müəllimin bir rəhbər və bir insan kimi mənalı ömür yolu hər birimiz üçün ən layiqli örnəkdir.

Ruhunuz şad olsun, Dağlar müəllim, Sizin kimi qədirbilən insanların əziz xatirəsi daim ürəklərdədir.

**Natiq ƏLİYEV,
Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru**

# Serj Sarkisyan növbəti dəfə qarşılıqlı razılaşmanı pozaraq müzakirə olunan məsələlərin bəzi detallarını özünə sərf edən formada açıqlayır

**(Əvvəli 1-ci səhifədə)**

S.Sarkisyan əlbəttə, Azərbaycan Prezidentinin bu mühakiməsi qarşısında ciddi bir arqument tapa bilmədiyindən 2010-cu ilin iyununda cəbhə bölgəsində minalanmış sahəni cəsarətlə keçərək düşməni onun öz silahı ilə ağır itkilərə məruz qoyan və qeyri-bərabər döyüşdə qəhrəmanlıqla həlak olan Mübariz İbrahimovun cəsədinin geri qaytarılması ətrafında Azərbaycanın apardığı təbliğata toxunub və azərbaycanlıları "Mübariz İbrahimovu qəhrəman kimi təqdim edərək ermənilərə göz dağı verməkdə" günahlandırıb. Prezident İlham Əliyev isə cavabında S.Sarkisyana xatırladıb: "Müharibənin öz qanunları var. Mübariz İbrahimovu biz qəhrəman kimi qələmə verməmişik. O, təkbaşına erməni əsgərlərinin qoruduğu səngəri dağıdaraq, ondan artıq işğalçı əsgəri öldürmüş və özü də həyatını qəhrəmancasına qurban vermişdir. Müharibə qanunlarına görə, tərəflər qəhrəmanlara hörmətlə yanaşmalıdır. Mübariz İbrahimov əsl qəhrəmanlıq nümunəsi göstərmiş və haqlı olaraq da Milli Qəhrəman adını qazanmışdır". Prezident İlham Əliyev S.Sarkisyandan qəhrəmanlara məhz qəhrəman kimi yanaşmağı tələb edib.

***- Əli müəllim, Serj Sarkisyan öz çıxışında, eyni zamanda, ermənilərin son diversiya hərəkətləri vaxtı Azərbaycanın daha çox itki verdiyini, ermənilərinsə "öz gücünü" nümayiş etdirdiyini bildirib və erməni xalqını sanki bu "faktla" sakitləşdirməyə cəhd göstərib. Bununla bağlı nə deyə bilərsiniz?***

- Sarkisyan əlbəttə ki, bu günlərdə baş verən təxribat-diversiya nəticəsində Ermənistanın işğalçı ordusunun itkilərini bilərəkdən gizlətməyə çalışır və bu faktı ört-basdır etmək istəyir. Halbuki bütün daxili və xarici mənbələrin məlumatları son hadisələrdə Ermənistanın 50-yə yaxın itki verdiyini təsdiqləyir. İtkiləri gizlətmək Ermənistanın hərbi-siyasi dairələrinə heç zaman müyəssər olmayacaq. Məsləhətdir ki, S.Sarkisyan Cənubi Qafqazda gələcək sülhə birbaşa zərbə vuran bu kimi təxribatçı halları davam etdirməkdənsə, erməni xalqını müharibənin girovunda saxlamaqdansa, son illər ölkəsini kütləvi şəkildə tərk edən, iş və çörək axtarışında bütün dünyaya səpələnmiş həmvətənlərinin qeydinə qalsa, daha yaxşı olar...

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*

# Düşmən qorxu içindədir, onları ordumuzun gücü sarsıdır



***Son vaxtlar ermənilərin bütün cəbhə boyu fəallaşması, sutka ərzində atəşkəsin tez-tez pozulması, sərhəd boyu ərazilərimizin intensiv atəşə tutulması nəticəsində canlı itkilərin, yaralıların olması faktları bütün xalqı ayağa qaldırdı, səfərbər etdi. Beləliklə ictimaiyyət hər an Ali Baş Komandanın müharibə əmrinə hazır olduğunu bəyan etdi.***

İsti avqust ayının ilk günlərində cəbhədə yaranmış mövcud vəziyyətlə əlaqədər əsl həqiqətləri xalqa çatdırmaq məqsədi ilə Müdafiə Nazirliyinin xəttilə bir qrup ictimaiyyət və media nümayəndəsi bölgələrə səfər etdi. Səngərlərdə zabit, gizir, əsgər heyəti və cəbhəyanı ərazilərdə yaşayan, illərlə düşmənin qarşısında əyilməz qala tək dayanan əhaliylə keçirilən görüşlər, şəhid ailələrinin dərdinə şərik olmaq bu günlərdə hər kəsin vətəndaşlıq borcuna çevrilib. Bütün bu hisslər o səfərdə yer alan hər kəsdə xoş ovqat, geniş təəssürat yaratmışdı.

Yolumuz Füzuli və Beyləqan istiqamətinədir. Yolboyu gördüyümüz yamyaşıl təsərrüfat sahələri və burada çalışan insanların əməyi, əhalidə gündəlik iş həyatının davamlı olmasından xəbər verirdi.

Füzuli rayonunda yerləşən "N" hərbi hissəsində bizi polkovnik Elçin Kərimov qarşılayır. Zabit qonaqları salamladıqdan sonra şəxsi heyət qarşısında çıxış etmək istəyən ictimaiyyət nümayəndələrinə söz verdi. Görüşdə söz alan qonaqlar səfərin məqsədini açıqlayaraq, xalqla ordunun bir olduğunu şəxsi heyətin diqqətinə çatdırdılar.

Susuzluğa, yorğunluğa baxmayaraq səngərə, döyüş mövqeyinə can atır, tez-tez hərbi hissənin zabitlərindən maşınların yola düşəcəyi vaxtı soruşurduq.

**(Ardı 4-cü səhifədə)**

# Cəbhə bölgəsində əsgərlərimizin əhval-ruhiyyəsi yüksək səviyyədədir

***Avqustun 14-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikası Milli Məclisinin göndərişi ilə cəbhə və sərhədyanı bölgələrdə olmuş deputat Xanhüseyn Kazımlı və Müdafiə Nazirliyi tərəfdən polkovnik Abdulla Qurbani "Hərbi vətənpərvərlik ruhunun müasir vəziyyəti və onun yüksəldilməsi" mövzusunda mətbuat konfransı keçiriblər.***

AzərTAc xəbər verir ki, Xanhüseyn Kazımlı sərhədyanı kəndlərdə yaşayan əhali və hərbi hissələrdə keçirilmiş görüşlər haqqında məlumat verib. Deputat bildirib ki, cəbhə bölgəsində əsgərlərimizin əhval-ruhiyyəsi yüksək səviyyədədir. Bu görüşlərdə bir daha əmin olduq ki, Azərbaycan əsgəri öz torpaqlarını qorumaq naminə hər zaman döyüşə hazırdır.

Çıxış edənlər ölkəmizdə orduya və əsgərlərimizə göstərilən dövlət qayğısından danışıblar. Mətbuat konfransında, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlarımızda təbii sərvətlərimizin talan edilməsi, abidələrimizin dağıdılması məsələsinə də toxunulub. Vurğulanıb ki, bu münaqişə nəticəsində Azərbaycan iqtisadiyyatına ciddi ziyan dəyib, Cənubi Qafqazda sabitlik pozulub. Lakin buna baxmayaraq, ölkəmizdə həyata keçirilən düzgün iqtisadi islahatlar sayəsində Azərbaycan sürətlə inkişaf edir.

Tədbirdə, həmçinin ziyalıların cəbhə bölgələrinə tez-tez səfərlərinin təşkil edilməsinin vacibliyinə toxunulub.

# Xəbərlər:

## hadisələr, faktlar

### Azərbaycan öz hərbi texnikasını beynəlxalq sərgidə nümayiş etdirəcək



Azərbaycan Müdafiə Sənayesi Nazirliyi gələn ay Bakıda keçiriləcək "ADEX-2014" beynəlxalq müdafiə sənayesi sərgisində yerli mütəxəssislər tərəfindən hazırlanmış yeni döyüş texnikalarını ilk dəfə ictimaiyyətə təqdim edəcək.

APA-nın məlumatına görə, artıq yeni döyüş maşınları ilk testlərdən keçib. Onların üzərində müəyyən təkmilləşdirmə işləri aparılıb.

Maşınlar mina və güllələrə qarşı yüksək qorumaya malikdir və yerli istehsal olan döyüş modulu ilə silahlandırılıb. Hər iki döyüş maşının idarəetmə sistemi kompüterləşdirilib.

### Yaponiya-Rusiya münasibətləri Kurilə görə yenidən gərginləşdi



Rusiya Federasiyasının Kuril adalarında hərbi təlimlərə başlaması Yaponiya və Rusiya münasibətlərinin yenidən gərginləşməsinə səbəb olub. Yaponiyanın Xarici İşlər Nazirliyi Rusiyaya Kuril adaları yaxınlığında keçirdiyi hərbi təlimlərə görə etirazını bildirib.

Yaponiya XİN həmin adaların iki dövlət arasında mübahisəli ərazilər olduğunu qeyd edərək bildirir: "Ölkəmizin hüquqi statusundan asılı olaraq, şimal əraziləri (Yaponiyada Kuril adaları belə adlanır - red.) yaxınlığında Rusiyanın hərbi təlimlər keçirməsini qəbulolunmaz hesab edirik. Buna qəti etirazımızı bildiririk".

Bu ərəfədə Yaponiyanın Baş naziri Şinzo Abe də Rusiyanın hərbi təlimlərini qəbuledilməz adlandırıb. Yaponiya XİN-in nümayəndələri isə bildiriblər ki, həmin təlimlər "birtərəfli qaydada" keçirilir.

Təlimlərin keçirilməsinə 1000-dən çox hərbçi, beş ədəd Mi-8AMTŞ helikopteri, 100 ədəd hərbi və xüsusi texnika cəlb edilib.

### Qahirədə Fələstin və İsrail nümayəndə heyətləri arasında danışıqlar başlayıb



Qahirədə Fələstin və İsrail nümayəndə heyətləri arasında birbaşa olmayan danışıqlar başlayıb. AzərTAc İTAR-TASS agentliyinə istinadla xəbər verir ki, tərəflər Qəzza zolağında qarşıdurmanın dayandırılması və müddətsiz sülh əldə edilməsi ilə bağlı məsələləri müzakirə edirlər.

Bazar günü Fələstin və İsrail Qahirənin vasitəçiliyi ilə Qəzzada daha bir 72 saatlıq atəşkəs barədə razılığa gəliblər. Danışıqların gündəliyində tərəflərin ümumi razılığa gələ bilmədiyi bir sıra məsələlər də var. Belə ki, fələstinlilər bölgəyə 2006-cı ildə tətbiq olunan blokadanın tam aradan qaldırılmasını təkid edirlər. İsraillilər isə, öz növbəsində, anklavın silahsızlaşdırılması tələbini irəli sürürlər.

### Vladimir Putin Krıma səfər edib




Rusiya prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının üzvləri ilə birlikdə Krıma səfər edib. APA-nın İTAR-TASS-a istinadən verdiyi məlumata görə, V. Putin yarımadaya ikigünlük səfərinə Sevastopol şəhərindən başlayıb.

Sevastopola səfər çərçivəsində Rusiya prezidenti bu gün Qara dəniz donanmasının qərargahında operativ müşavirə keçirib.

Bu, Krımın 2014-cü ilin martında Rusiyaya birləşdirilməsindən sonra, Putinin yarımadaya ikinci səfəridir.

V. Putin avqustun 14-də Yaltaya da səfər edib, orada "Mriya" kurort kompleksinin tikintisi ilə tanış olub.

### Qlobal neft tələbatı artaraq gündə 93 milyon barelə çatıb

Beynəlxalq Enerji Agentliyi iyul ayında qlobal neft tələbatının 230 min barel artaraq gündə 93 milyon barel səviyyəsinə yüksəldiyini açıqlayıb.

Agentliyin hesabatına görə, ötən ilin iyul ayı ilə müqayisədə gündəlik tələbatda 840 min barel artım qeydə alınıb. Hesabatda buna OPEK üzvü olmayan ölkələrdə neft istehsalının artmasının səbəb olduğu bildirilir. Qeyd edilir ki, bu il qlobal neftə gündəlik tələbat 92,7 milyon barelə, artım isə orta hesabla 1 milyon barelə çatacaq. Proqnozlara əsasən, 2015-ci ildə bu göstərici 1,3 milyon barelə yüksələcək.

### Erməni kilsəsinin rəhbəri KQB agenti çıxdı



Avstraliyanın nüfuzlu "The Sydney Morning Herald" qəzeti Rusiya kəşfiyyatının arxiv sənədlərinə istinadla ölkədə fəaliyyət göstərən Avstraliya erməni kilsəsinin rəhbəri, arxiyepiskop Aqan Balyozyanın uzun illər "Zorik" ləqəbi altında KQB agenti işləməsi barədə geniş məqalə dərc edib.

Balyozyanın 1946-cı ildə Suriyada anadan olduğu, Avstraliyaya isə 1975-ci ildə köçdüyü vurğulanır. 1973-cü ildə İrəvanda dini ayinlər oxuyan arxiyepiskop sovet kəşfiyyatı tərəfindən əməkdaşlığa cəlb olunur. Növbəti illərdə - 1974-ci ildə Qüdsə gedən Balyozyan "üç ölkədən" KQB-yə məlumatlar ötürməyə başlayır. Avstraliyadakı "fəaliyyəti" isə növbəti illərə təsadüf edir.

Erməni kilsələri arasında birliyin yaranmasındakı xidmətlərinə görə, o bir sıra medalla təltif olunur. Balyozyan 2012-ci ildə yaşadığı evdə dünyasını dəyişir.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Düşmən qorxu içindədir, onları ordumuzun gücü sarsıdır



(Əvvəli 3-cü səhifədə)

Budur, artıq saat 13:40-ı göstərir. Hərbi maşınlar tozlu-torpaqlı yollardan keçərək Xocavənd istiqamətində düşmənlə təmas xəttinə doğru irəliləyir.

Səngərdə keşik çəkən, torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanan qəhrəman Vətən oğullarının görüşünə tələsirik. Bir azdan ön postun ərazisinə daxil oluruq. İctimaiyyət və media nümayəndələrini ön xətdəki taborun cavabdeh zabitləri - polkovnik-leytenant Elmar Məmmədov, mayor Elvan Cəfərov, baş leytenant Nicat İlyasov qarşılayırlar. Biz döyüş növbəsi çəkən hərbçilərə yaxınlaşıb xidmətləri ilə yaxından tanış olur, düşmənin mövqelərini müşahidə edirik.

Bizi müşayiət edən zabit Elmar Məmmədov söhbətimizdə bildirdi ki, Ermənistan hərbi birləşmələri tərəfindən mövqelərimiz hər gün atəşə tutulur. Ancaq son 1 həftə ərzində düşmən daha çox fəallaşıb. Ermənilərin təxribat qrupları daim mövqelərimizə basqın etməyə cəhd edirlər. Təbii ki, onların qarşısı həmişə hərbçilərimiz tərəfindən mərdliklə alınır. Belə döyüşlərdə səy və bacarığa, peşəkarlığa, ayıq-sayıqlığa üstünlük verilir, canlı itkilərimizin olmamasına çalışırıq.

O söhbətinə davam edərək qeyd etdi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji ruhu yüksəkdir. Onlar hər an düşmənlə döyüşməyə və torpaqlarmızı azad etməyə hazırdırlar. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarının ordu quruculuğuna diqqət və qayğısı, Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən xidmətdə, döyüşdə fərqlənənlərə diqqət göstərilməsi bizi daha da ruhlandırır.

Müsahibim baş leytenant Nicat İlyasovun səngərdəki söhbətini oxucularımızın diqqətinə çatdırıram.



- 10 ildir ki, hərbi xidmətdəyəm, bunun 5 il 2 ayını düşmənlə üzbəüz səngərdə olmuşam, - deyə zabit bildirir. - Ermənilər çox qorxaqdırlar. Atəşkəsi həmişə özləri pozurlar, biz bu atəş nöqtələrini susduranda siz görəsiniz ki, onlar necə vahiməyə düşüb qaçırlar. Demək istərdim ki, hər bir əsgərimizdə döyüş ruhu, qələbə əzmi böyükdür.

***- Tabeliyində hansı rayonlardan hərbi xidmətə gələn əsgərlər var?***

- Elin-obanın o tayı, bu tayı olmaz. Hamımız bir xalqın - Azərbaycan xalqının övladlarıyıq. Bir düşmənimiz var, o da erməni. Bizi bu səngərdə bir amal birləşdirir: torpaqlarımızı düşmən tapdağından azad etmək.

Zabitin sualıma verdiyi cavabın təsiri altında yenicə növbədən qayıdan gizir və əsgərlərə yaxınlaşıram. Gənc döyüşçülərdən Tunar Bilallı (Şəki ), Ətraf Əliyev (Göygöl), Rəşad Ağayev (Qəbələ), Rəvan Əliyev (Kürdəmir), gizirlər Aqil Məlikov (Masalı), Elgün Ələkbərov (Xızı) və başqaları Vətənin, torpağın müdafiəsində hərbi anda sadiq qalacaqlarını, şəhid yoldaşlarının qisasını alacaqlarını və tezliklə düşmən üzərində qələbə qazanacaqlarını qürurla bildirirlər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

### Şahmat Olimpiadasında tarixi uğurun bir addımlığında



Norveçin Tromse şəhərində keçirilən Ümumdünya Şahmat Olimpiadasında komandamız axırıncı turda lazım olan vacib qələbəni qazanıb. Onlar Şəhriyar Məmmədyarovun sayəsində ABŞ-la mübarizədən qalib ayrılıblar. Lakin yekunda 4 komandanın xalları bərabərləşib və əlavə əmsallar millimizin Olimpiadada ilk medalını qazanmasına əngəl olub. Yığmamızla eyni xal toplayan Macarıstan və Hindistan müvafiq olaraq, gümüş və bürünc mükafatlara sahib olublar. Azərbaycan kimi 17 xal yığan Rusiya isə 4-cü olduğundan, təmsilçimiz 5-ci yerlə kifayətlənib. Qalib adı isə Çin şahmatçılarına qismət olub.

### Çimərlik futbolu üzrə Avropa super finalı yarışlarına qələbə ilə



Avqustun 14-də İspaniyanın Torredembarra şəhərində təşkil olunmuş çimərlik futbolu üzrə Avropa super finalı yarışlarında Azərbaycan milli komandası ilk oyununu keçirib.

AzərTAc xəbər verir ki, Çexiya yığması ilə qarşılaşan millimiz 6:2 hesabı ilə qələbə qazanıb. Asif Zeynalovun dubl etdiyi oyunda, həmçinin Hikmət Bağırov, Amid Nəzərov, Orxan Məmmədov və Sabir Allahquliyev fərqləniblər.

Millimiz turnirdə növbəti oyununu avqustun 15-də Polşa yığmasına qarşı keçirib.

### Azərbaycan - Özbəkistan: biletlər satışa çıxarıldı

Avqustun 20-də "Bakcell Arena"da Azərbaycan və Özbəkistan milli komandaları arasında keçiriləcək yoldaşlıq oyununun biletləri satışa çıxarılıb. AFFA-nın məlumatına görə, biletləri "Bakcell Arena"nın kassalarında əldə etmək mümkündür.

Azərbaycan və Özbəkistan milliləri arasında yoldaşlıq oyununun baş hakimliyi Georgi Vadaçkoriaya həvalə olunub. Avqustun 20-dəki qarşılaşma saat 21:00-da başlayacaq.

### Kanalesin "Neftçi"yə keçidi rəsmiləşdi



Bakının "Neftçi" klubu daha bir futbolçu ilə münasibətlərini rəsmiləşdirib. Apasport.az saytının məlumatına görə, paytaxt təmsilçisi çilili hücumçu Nikolas Kanaleslə müqavilə bağlayıb. Bir neçə gün əvvəl Bakıya gələn cənubi amerikalı ilə 1+1 il müddətinə anlaşıb. 2012-13 mövsümündə Premyer Liqanın bombardiri olan Kanales paytaxt təmsilçisində yenə 11 nömrəli formanı geyəcək.

### Xızıda velosiped üzrə Azərbaycan çempionatına yekun vurulub



Xızıda velosiped idmanının cüt və qrup ötüşmələri üzrə Azərbaycan çempionatına yekun vurulub. Ölkə çempionatının iştirakçıları arasında Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası "Synergy Baku"nun 4 üzvü də iştirak edib. U-23 yaş qrupunda finişə 16 kilometr qalmış isə Maksim Averin vahid liderlik əldə edib və üstünlüyünü sonadək qorumaqla Azərbaycan çempionu adına sahib olub. Digər yaş qruplarına gəlincə, gənclər arasında Elgün Əlizadə, U-17 yaş kateqoriyasında Mikayıl Səfərli, U-15 yaş qrupunda isə İvan Orlov bütün rəqiblərini qabaqlayıblar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

## Azərbaycan diplomatları Ankarada müalicə olunan yaralı əsgərlərimizə baş çəkiblər

***Azərbaycan Respublikasının Türkiyədəki səfiri Faiq Bağırov rəhbərlik etdiyi diplomatik nümayəndəliyin kollektivi ilə birlikdə Ankarada müalicə olunan yaralı hərbçilərimizə baş çəkib.***

Əsgərlərimizin sağlamlıq vəziyyəti, müalicələrinin təsiri barədə diplomatlarımıza məlumat verilib. Hərbçilərimizə Allahdan şəfa diləyən səfir F.Bağırov Vətənimizin müdafiəsində göstərdikləri şücaətə görə onlara minnətdarlıq edib.

Əsgərlərimiz Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu, Avropa İttifaqı üzrə nazir Mövlud Çavuşoğlu, Böyük Millət Məclisinin deputatı Şuay Alpay və digər rəsmilər, eləcə də ictimaiyyətin bütün təbəqələrini təmsil edən şəxslər tərəfindən də ziyarət olunublar.

Xatırladaq ki, təcavüzkar Ermənistanın hərbi birləşmələrinin hücumları zamanı yaralanmış Azərbaycan Silahlı Qüvvələrinin üç hərbçisi - Ədalət Məmmədov, Elvin Əsgərov və Sərxan Tahirzadə avqustun 9-da təyyarə ilə Türkiyəyə müalicəyə gətiriliblər.

**AzərTAc**

## Xarici hərbi xronika

### Silahlanmaya "Molniya" raket gəmisi daxil edilib

Bu yaxınlarda Vyetnamın Hərbi Dəniz Qüvvələri silahlanmasına "Molniya" raket gəmisini qəbul edib. Məlumata görə, Rusiya modeli əsasında quraşdırılmış "Tyou tre nyus" qayıqları Vyetnamın dəniz donanmasının 167-ci briqadasına təqdim edilib. "Molniya" gəmisi daha müasir qurğularla təchiz olunub. Gəmilərin hazırlanması işinin 2016-cı ilə qədər davam etdiriləcəyi bildirilib.

### "Karaqanda" gözətçi gəmisi

Bu yaxınlarda Uralın "Zenit" zavodunda Qazaxıstanın dövlət sərhəd xidməti üçün nəzərdə tutulmuş yüksək sürətli "Karaqanda" gözətçi gəmisinin suya buraxılması mərasimi keçirilib. Onun su basımı 62 ton, uzunluğu 27,3 metr və eni 6,62 metr təşkil edir. Heyəti 15 nəfərdən ibarətdir. Gəminin silahlanmasında 12,7 mm-lik pulemyotla distansion idarəolunan qurğu vardır. Yaxın vaxtlarda dövlət sərhəd xidməti üçün ikinci gəminin istehsalına başlanacaq. "Karaqanda" gəmisi "Zenit" zavodu tərəfindən hazırlanmış 22-ci hərbi gəmidir. Gələcəkdə isə daha yeddi gəminin istehsalı planlaşdırılır.

### Monqol təyyarəçiləri kurs keçiblər

Uçuş və mühəndis-texniki heyətinin hazırlanması üzrə bağlanmış müqavilə əsasında "Rusiyanın vertolyotları" təlim mərkəzində "Monqolın Alt Korporasiya" şirkətinin təyyarəçiləri ixtisasartırma kursu keçiblər.

Təlim mərkəzinin mətbuat xidmətindlən verilən məlumata əsasən, Monqol şirkətinin parkında iki 17 Mi-8-yalı və Mi-171 və Mi-8AMT vertolyotları iştirak edib.

Bu mərkəzdə yüksək səviyyədə nəzəri, trenajor və uçuşa hazırlıq üzrə mütəxəssislər hazırlanır. Burada təlim keçən uçuş heyətinə sertifikatlar da təqdim olunur.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

*Tarix*

# Mətbuat vasitəsilə erməni terroru

***XIX əsrin sonlarından etibarən erməni milliyyətçiliyi həm Cənubi Qafqazda, həm də Şərqi Anadoluda genişlənməyə başlayırdı. Qafqazda Rusiyanın nüfuzu onların daha da əl-qol açmasına imkan verirdi. Tiflis, Bakı və digər şəhərlərdə ermənilərin çıxardıqları qəzetlərə tam sərbəstlik verilmişdi, başqa milli mətbuata tətbiq olunan senzura, demək olar ki, erməni milli mətbuatına şamil edilmirdi.***



Amerika və Avropa missioner təşkilatlarının yetirmələri bölgədə öz fəaliyyətlərini genişləndirirdilər. Bu təşkilatlar tərəfindən ABŞ-a aparılan erməni kollec tələbələri bu ölkədə milliyyətçi qəzetlər çıxarmağa başlamışdılar. Onlardan biri "Arevak" ("Günəş" mənasında) Nyu-Yorkda çıxırdı. Bu qəzetin səhifələrində türk xalqına, müsəlmanlara qarşı həqarət ruhlu yazılar verilirdi. Türkiyədən köç edənlərin mətbu orqanlarından olan "Hayk" qəzeti onların sırasında idi. Filadelfiyaya Harputdan köçmüş rahib Qabrielyanın çap etdirdiyi kitab - "Ermənilər və Ararat xalqı" Osmanlı dövləti üçün o qədər təhlükəli idi ki, bu kitabın ölkəyə gətirilməsinə dövlət icazə verməmişdi. Amerikada türk-müsəlmanların əleyhinə aparılan ideoloji işin başında ABŞ hökumətinin özü dururdu. ABŞ dəniz boğazlarında nəzarəti əldə etmək, Yaxın Şərqdə söz sahibi olmaq üçün erməni faktorundan istifadə etmək istəyirdi. Erməni üsyanlarının davam etməsinə tərəfdar olduğunu o dövrdə öz konsullarına və missioner təşkilatlarının rəhbərlərinə verdiyi göstərişlərlə sübut edirdi. Yeri gəldikcə isə o dövr üçün təsirli vasitə hesab olunan kitablar çap etdirib yayırdı. "Osmanlı dövlətində erməni böhranı və 1894-cü il qətliamı" kitabının müəllifi Frenk Grenee çox qəribə də olsa bir amerikan missioneri idi. O, İstanbulda, Merzifonda, Ərzurumda kollecdə işləmək adı ilə uzun müddət fəaliyyət göstərmiş, sonra Vana gəlmişdi. Onun qələmə aldığı bu kitab həm ABŞ-da, həm də Türkiyədə kütləvi şəkildə yayılmışdı. Məqsəd erməniləri türklərə qarşı vuruşlara qalxmağa təşviq etmək idi. Həmin dövrdə Şərqi Anadoluda ermənilərə paylanan "Ermənilərə hərbi təlim dərsləri" kitabını da ABŞ-da nəşr etmişdilər. ABŞ bu siyasi və ideoloji xəttini Birinci Dünya müharibəsinə qədər davam etdirdi. Birinci Dünya müharibəsində faktiki olaraq Osmanlı İmperatorluğuna qarşı müharibə vəziyyətində olan ABŞ ona müharibə elan etmədi. Ona görə ki, Osmanlı dövlətinin bütün ərazilərində minlərlə missioner təşkilatları var idi və onların bir anın içində bu ölkəni tərk etməsi ABŞ dövlətinin siyasi strategiyasına uyğun deyildi.

1877-78-ci illərdə rus-türk müharibəsindən sonra Rusiya dövləti artıq ona nail olmuşdu ki, San-Stefano müqaviləsinin 16-cı maddəsinə görə, Osmanlı dövləti ermənilərin yaşadıqları əyalətlərdə onların hüquqlarını qoruyacağını öhdəsinə götürmüşdü. Berlin müqaviləsində isə ermənilərlə bağlı hər hansı məsələ ortaya çıxarkən Osmanlı hakimiyyəti bununla əlaqədar Rusiyanın rəyini soruşmağı öhdəsinə götürmüşdü. İstanbul erməni katolikosu Nerses Vardabetyan Ecmiədzin katolikosunun vasitəsilə rus çarı ilə görüşərək Rusiyanın işğal etdiyi torpaqlarda (Şərqi Anadolunun bir hissəsi) ermənilərə muxtariyyət verilməsini rica etmişdi. Cənubi Qafqazda ermənilər İrəvan və Naxçıvan xanlıqlarının "Erməni vilayəti" adlandırılmasına hələ 1828-ci ildə nail olmuşdular. Ermənilərin ruslara meyllənməsi və onların yaratdıqları siyasi təşkilatların (əsasən "Daşnaksutyun" və "Hnçak") Rusiya tərəfindən himayə olunması İngiltərəni razı sala bilməzdi. İngiltərə strateqləri hesab edirdilər ki, Osmanlı bir dövlət kimi get-gedə zəifləyir, onun çöküşü qaçılmazdır. Rusiyanın bu coğrafi məkanda xüsusi söz sahibi olması istər-istəməz İngiltərənin nüfuzuna xələl gətirirdi. Ona görə də bölgədə İngiltərə və Rusiyanın maraqları toqquşmağa başlamışdı. Rusiyanın müharibə nəticəsində əldə etdiyi torpaqlarla kifayətlənməyəcəyini London çox yaxşı bilirdi. Bu baxımdan İngiltərə erməniləri öz tərəflərinə çəkmək istəyirdi. Bu vəziyyətdən yararlanan isə yenə də erməni siyasi təşkilatları idi. Artıq mövcud olan "Erməni məsələsi" beynəlxalq siyasi sistemin gündəminə gəlirdi. Erməni müəlliflərindən olan Con Kirakosyan 1965-ci ildə İrəvanda nəşr etdirdiyi "Birinci Dünya müharibəsi və Şərqi ermənilik" adlı kitabında etiraf edir ki, "bu müqavilə (Berlin müqaviləsi ) bizim üçün çox böyük imkanlar açdı. Rusiya və Böyük Britaniya Ermənistanda (Şərqi Anadolu nəzərdə tutulur) bir-biri ilə mövqe mübarizəsinə girişəcəkdilər və erməni faktoru daim ortada olacaqdı".

Rusiya bilirdi ki, çarizmin cənuba doğru yürüşü ingilisləri çox narahat edir, ona görə də ermənilərin istinad nöqtəsi kimi qayğısına çox qalırdı. İngiltərə çox çalışırdı ki, Rusiya Osmanlı dövləti ilə təkbaşına döyüş meydanına girməsin. O zaman türklər məğlub olar və Rusiya bölgədə daha da güclənərdi. Tarixi faktlar, rus konsullarının xatirələri bu həqiqəti də ortaya qoyur ki, Rusiya ermənilər üçün alınmış 61-ci maddə ilə kifayətlənməyə qərarlı idi. Rusiya özü isə istəmirdi ki, burada muxtar bir erməni qurumu, daha sonra isə dövləti olsun (Tverdoxlebov, Mayevski). Bu, Qafqazdakı erməniləri də şirnikləndirəcəkdi, ölkədə inqilabi hərəkatın yetişdiyi və başladığı həmin illərdə ermənilərin də ayağa qalxması Rusiyanı narahat edirdi. Erməni hərəkatı Qafqazda gürcüləri, müsəlman-türk əhalini də ayağa qaldıra bilərdi. İngilislərə də ermənilərin muxtariyyəti lazım deyildi, Londonun arzusu "Doğu Anadoluda Avropa ahəngini, felən öz maraqlarını təmin edəcək bir protektorat qurmaq idi". Amma erməni üsyanlarını dəstəkləyir, konsulunu Vana, Bitlisə göndərərək erməniləri qarşıdurmalara sövq edirdi.

Bütün bunlara baxmayaraq, erməni muxtariyyətinin yaradılması istiqamətindəki böyük dövlətlərin fəaliyyətləri bir müddət durğunluğa düçar oldu. Amma bu, uzun sürmədi. 1909-cu ildə Adanada baş verən olaylarla o, yenidən gündəmə gətirildi. Erməni komitəçilərinin təşkil etdikləri bütün iğtişaşlar Avropada yetişmiş militanlar tərəfindən törədilirdi. Bir məqsəd var idi. "Erməni məsələsi"ni yenidən gündəmə gətirmək! Ermənilərin fəal aksiyalara başlamaları da bu səbəbdən idi. Osmanlı bankına hücum etmək üçün daşnakların, hətta Qafqazdan üç komitə lideri gəlmişdi. Bu basqın ona görə Osmanlı bankına edilir ki, bank xarici sərmayəli idi. Bu basqında 120 jandarm ölmüş, 25-i yaralanmışdı. 1909-cu il Adana olaylarına qədər erməni üsyanları Sasun təpələrindən Muşa qədər (1904) yayılmışdı, Vanı da əhatə etmişdi, amma bir o qədər diqqəti cəlb etməmişdi. Yeni aksiyaya - Adana üsyanına ermənilər xüsusi hazırlıq görmüşdülər. 1908-ci il Məşrutiyyət elanından sonra hər kəsdə bir hürriyyət sərxoşluğu başlamışdı, ölkədə qarışıqlıq yaranmışdı. Bundan faydalanan erməni cinayətkarlar, siyasi suçlular, qaçaqlar İstanbula doluşmuşdular. İttihad və Tərəqqi Partiyası tədbirlər görmək əvəzinə səhv bir yol seçdi. Erməniləri müəyyən vəzifələrə gətirdilər. Onlar isə əl altından, gizlicə "Daşnak", "Hnçak" və digər milliyyətçi erməni komitələrini dirçəltməyə başladılar. Çox qısa zamanda İstanbulun özündəcə türklüyü təhqir etməkdən çəkinməyərək "Yaşasın Ermənistan" şüarları ilə küçələrə çıxmağa başladılar. Erməni cinayətkarlar qəhrəman kimi təqdim edilməyə, onlar haqqında kitablar yazılıb nəşr olunmağa başladı. Bu kitablarda Vanlı Aram, Andranik, Armen Karo və başqa ermənilər vəsf olunurdu.

**(Ardı var)**

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 266
Nüsxə 4570